Hürriyyət

Tarix

SİZİN ÜÇÜN QƏZET
№23 (3123) 2 - 3 Mart / 2021-ci il
www.hurriyyet.org; / hurriyyet@mail.ru



# Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı




## ERMƏNİ TARİXİ VƏ ERMƏNİ - GÜRCÜ ZİDDİYYƏTLƏRİ. GÜRCÜLƏRİN SOYQIRIMI

Tanınmış araşdırmaçı yazar Xaqani İsmayılın "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı" kitabı bədnam qonşumuzun bütün yalanlarını ifşa edən, onların xislətini ortaya çıxaran və bir çox tarixi faktlara işıq tutan ən mükəmməl vəsaitlərdən biridir. Müəllifin böyük zəhməti hesabına 3 dildə - Azərbaycan türkcəsi, rus və ingiliscə çap olunan kitabın, xüsusən də bütün dünyanın diqqətinin Qarabağa yönəldiyi indiki ərəfədə, geniş yayılmasına ciddi ehtiyac duyuruq. Odur ki, AMEA Tarix İnstitutunun və İnsan Hüquqları İnstitutunun rəyi və tövsiyəsi ilə nəşr olunan bu kitabın "Hürriyyət" qəzetində hissə-hissə dərcinə qərar verdik. Buyurun, oxuyun.

*(Əvvəli ötən saylarımızda)*

Gürcüstan daxilində erməniləri silahlandırma və Tiflisdə, üstəlik Gürcüstanın başqa bölgələrində (bundan başqa, Ukraynada, Donda və b. yerlərdə) ermənilərin səfərbərliyini keçirmə (həm də bu səfərbərliklər Tiflisdən idarə olunurdu) kimi addımları daşnakların daha böyük iddialara malik olduqlarından xəbər verirdi...

Daşnakların ərazi iştahının mücəssəmələrindən olan "Qafqaz poçtu" adlı ingilisdilli erməni qəzeti o dönəmlərdə yazırdı: "...qabaqlar Tiflis ermənilərə məxsus idi və yalnız millətçilik tədbirlərindən sonra şəhər Gürcü hökumətinin əlinə keçdi "... Bu kimi iddiaların sonucunda Gürcüstan hökumətinin çarəsi tükənərək, öz ərazilərində Ermənistan (yəqin ki, Erməni -X.İ.) Milli Şurasının fəaliyyətinə qadağa qoydu.

Gürcü mənbələri həmin dövrdə ermənilərin ingilislərin dəstəyinə nail olduqlarını da qeyd edirlər... [Gürcü müəlliflərinin bir mülahizəsi də diqqətçəkicidir: sonralar "İngiltərənin (ədalətli yürüdülməyən -X.İ.) Yaxın Şərq siyasəti iflasa uğradı" və ingilislər Tiflisi də tərk etmək zorunda qaldılar...

Gürcüstan parlamentinin 1919-cu il 10 noyabr tarixli iclasında Gürcüstan hökumətinə müraciət edən Ermənistan nümayəndəsi Doluxanov yanvarın 5-də milliyətcə erməni olan şəxslərin tutulmasının səbəblərini quberniya idarəsindən, bəzi ermənilərin məsul işlərdən azad edilməsinin səbəblərini isə Ədliyyə Nazirliyindən açıqlamağı tələb edirdi.

Gürcüstan parlamentinin iclasında ermənilərin əsassız ittihamlarına cavab verənlərdən biri-R. Qabaşvili aşağıdakıları söyləməyə vadar oldu: "Ölkə müstəqilliyinin xilası naminə satqınlıq siyasəti yeridən millətcə erməni



olan şəxslərə qarşı cəza tədbirləri həyata keçirmək gərəkdir." Bundan başqa, o bildirdi ki, Ermənistanla müharibə vaxtı Gürcüstana qarşı fəaliyyətdə olan bütün xəyanətkarlar məhv edilməlidir. K.Nินindze, Doluxanov və Avetisyana "Orizon" və "Nororizon" qəzetlərinin gürcülərə qarşı fəaliyyətini xatırlatdı. Onu Axalkələk mahalında Xospiy kəndinin gürcü müsəlman əhalisinin amansız qırılması faktı qarşısında qoydu və bildirdi ki, nəhəng daşnak partiyasının siyasəti hər yerdə eynidir.

Gürcüstanın təşəbbüsü ilə 25 aprel 1919-cu ildə Tiflisdə Ümumqafqaz Konfransı keçirildi. Bu konfransa Dağlı Xalqları Respublikasının təmsilçiləri də qatılmışdılar. Konfransın qətnaməsi Qafqaz xalqlarının istiqlaliyyətinə müdaxilə edən yabançı qüvvələrə, o sıradan Denikin ordusuna qarşı yönəlmişdi və bir sıra əməli təkliflərə söykənirdi. Konfrans erməni tərəfinin pozuculuq fəaliyyəti sayəsində sonuc vermədi.

1919-cu ilin avqust-sentyabr aylarında Məshət-Cavahetiyada keçirilmiş seçkilər də erməni millətçilərinə gerçək münasibəti açıqladı: Axalkələk mahalının 35 000 seçicisindən 30 000-i seçkidə iştirak etmiş, onlardan 24 000-i gürcü sosial-demokratlarına, 2 500-ü milli-demokrat partiyasına, 3 000-ə yaxını isə Daşnaksütyuna (Axalkələkdə isə: 21 687 iştirakçının 13 000-i sosial-demokratlara, 7 000-i daşnaklara) səs vermişdi. "Ertoba" qəzetinin yazdığı kimi, seçkilər sübut etdi ki, ermənilərin "Böyük Ermənistan"ın "ayrılmaz parçası" kimi "gördükləri" bu vilayətlərdə əhalinin 2/3 hissəsi canı-qanı ilə Gürcüstana bağlıdır. Xatırladaq ki, o dönəmdə ermənilər Cavahetiyanı israrla tələb edir və bu yolda hər vasitəyə əl atır, həmçinin ingilislərin müdaxiləsinə güvənirdilər.

Ermənilərin iddia paketinə Tiflis quberniyası və Batum diyarı da daxil idi. Bu iddialarını onlar 7 may 1920-ci il tarixli Gürcüstan-Rusiya müqaviləsinə münasibətdə açıq şəkildə ortaya qoymuş oldular. Ermənilər Qara dənizə çıxışı ələ keçirmək üçün Çoroki rayonunu xüsusi canfəşanlıqla tələb edir, Qarsa dəmiryolu çəkmək səbəbilə bu bölgə onlara vacib olduğunu bildirirdilər. Hətta xatırlanan Gürcüstan-Rusiya müqaviləsinin göstərilən ərazilərə şamil edilməməsi tələbilə Ermənistan Xarici İşlər naziri Sovet Rusiyasındakı həmkarı Çiçerinə məktub da göndərmişdi...

"Ertoba" qəzetinin yazdığı kimi, ermənilər Acariya (Acarıstan -X.İ.) müsəlmanlarının Gürcüstana birləşmək istəyini gerçəkləşdirməyə də mane olmuşdular. (Paris 18 yanvar 1919-cu il-21 yanvar 1920-ci il və San-Remo 19-26 aprel 1920-ci il konfranslarında ermənilərin pozuculuq fəaliyyətləri nəzərdə tutulur -Ş.V.)...

I Dünya Savaşı dönəmindən günümüzə gəldikdə də, erməni iddiaları siyasi, mənəvi, etnik sınırlar tanımadan, ermənilərə rəhm və güzəşt edərək dövlətçilik haqqı tanımış qonşu xalqların (türk, gürcü, azərbaycanlı) siyasi, mənəvi, etnik kimlikləri üzərinə yeriməkdədir.

Belə cəhdlərdən birində gürcü kilsələri erməni kilsələri kimi təqdim edilərək, Gürcüstan üzərinə növbəti "gəmeşmə" zəminlərinə hazırlıq görülməsi sezilir: daha aydın desək, 1995-ci ildə İrəvanda yayınlanmış "Gürcüstanda erməni kilsələri" xəritə-məlumat kitabında Gürcüstan ərazisində 650 erməni kilsəsinin olduğuna diqqət çəkilir. Gürcü alimi, professor Bondo Arveladze konkret olaraq, bir neçə kilsənin misalında, detallara vararaq sübut edir ki, bu cür iddialar əsla həqiqətə uyğun deyildir...

Ermənistandan dəstək alan Gürcüstanın indiki Samtsxe-Cavahetiya mahalında məskunlaşmış erməni icması isə silahlı mübarizəyə ciddi hazırlıq görür. Ermənistandan qeyri-hökumət təşkilatları adı altında maliyyələşib təlimatlanan bölücü qurumların bəzi aktivləri (qeyri-hökumət təşkilatlarının başçıları Qriqor Minasyan, Sergey Akopcan və b. timsalında) silahlı qruplar yaratmaq və Gürcüstan əleyhinə casusluq etmək suçu ilə yarğılanaraq tutulmuşlar...

Bu da təsadüfi deyil ki, Rusiyanın Gürcüstana və ümumilikdə Qafqaza yeni basqı dalğası fonunda ermənilərin təcavüzkarlıq ruhu daha da havalanmış və bir erməni keşişinin deyimində açıq, həyasızcasına ifadə olunduğu kimi ("İki erməni dövlətinin olmasından məmnunam, ancaq üçüncüsü də lazımdır - Cavahetiya"), hər cür beynəlxalq normaları və sərhəd bütünlüyü prinsiplərini pozmaqdan qurur duyma eyforiyasına qapılmaq durumundadır.

Ermənilərin Gürcüstanın indiki Samtsxe-Cavahetiya mahalında və başqa bölgələrində törətdikləri vəhşiliklər-təcavüz, terror və bölücülük fəaliyyətləri haqda müasir Gürcü mətbuatı saysız-hesabsız faktlar dolu məqalələr yayınlamaqdadır. Bu fəaliyyətləri və çağdaş erməni iddialarının boyutlarını anladan (yayınlamış) faktiki məqalələrdən ibarət topluda günümüzdəki erməni-gürcü konfliktlərinə dair mənzərə daha gerçəkçi bir şəkildə üzə çıxır.

Başqa sözlə, qonşu xalqların ərazilərindən xülya təriqi ilə "yamanmış", quduz düşüncə məhsulu olan "Böyük Ermənistan" coğrafiyasını erməni dövlətçiliyinə "təslim etmə" çabaları o zaman olduğu kimi, bu gün də bölgədə barış, düzən və xeyir-bərəkət qoymamış, istiqbala gedən bütün yolları əngəllərlə doldurmuş və batırmışdır... İstiqbala gedən yolların çırağına daş-kəsək atan ermənilər öz yollarını da qaranlığa qərq edərək, qonşularını özlərilə birgə dibsiz bir uçuruma doğru sürükləməyi özlərinə əskidən bir "peşə" seçmiş və yarına da bu "peşə"ylə "inam"la qoşmaqdadırlar...

* * *

Filologiya elmlər doktoru, ermənişünas Bondo Arveladzenin Ermənistan Respublikası Yazıçılar İttifaqının sədri Sero Xanzadyana açıq məktubu (fevral 1995-ci il) çağdaş erməni vəhşiliyinin bir çox mühüm detallarını ortaya qoymuşdur:

"23 yaşlı Mziya M. (atasının xahişi ilə qızın soyadı göstərilmir) Suxumidə Qoqua küçəsində öz evində erməni yaraqlıları tərəfindən qrup halında zorlanmışdır. Sonra kef məclisi qurulmuşdur. Huşu özünə gələn Mziya M. avtomatdan açdığı atəşlə 7 quldurdan 3-nü öldürmüş, 4-nü isə yaralamışdır. Yerli sakinlərdən kimsə onu gizlətmişdir. Fəqət yaxınlıqda yaşayan erməni onları ələ vermişdir. Batalyondan gələnlər onu həyətə çıxarmış, yenidən zorlamış, əzab vermiş, qulaq və barmaqlarını kəsmiş, sonra isə güllələmişlər.

Sentyabrın 10-da Suxumi rayonunun ən qədim kəndi Akafda erməni yaraqlıları Raulun, İlya Papiyanın, Anzorun, Cenerin, Otar Qoquanın, Nora Aroniyanın, Kuta Kardavanın ailə üzvlərini məhv etmiş, evlərini yandırmışlar. Akafda 27 nəfər bu hücumun qurbanı olmuşdur.

Daha bir neçə fakta diqqətinizi cəlb etmək istərdik, cənab Xanzadyan, Pşavi kəndində erməni yaraqlıları 11 nəfəri öldürmüşlər. Onların yarısı qadın idı. Hamısını bir evə toplamış və orada güllələmişlər. Onların hamısı öldürüldükləri həyətdə də dəfn edilmişdir. 20 evi yandırmış, daşınan və daşınmayan əmlakı talan etmişlər. Onlar bağıra-bağıra deyərmişlər:

"Siz gürcüləri bu torpaqda yaşamağa qoymayacağıq!"

Nano Deysadzeni özünün xüsusi evindən çıxarmış və oraya Armavirdən olan bir erməni köçürmüşlər. Gürcülərin min bir əzabla Yaşixva kəndində tikdirdikləri məktəbi erməni uşaqlarına vermişlər. Svoboda kəndində də belə etmişlər.

Yaşixva kəndində ermənilər qrup halında Nina Kvparasxeliyanı zorlamış və öldürmüşlər. Otobai kəndində Kako Cabavanı və 83 yaşlı dəyirmançı Dome Ketsbayanı ona görə öldürmüşlər ki, onlar öz evlərinə girmiş, ərzaq "oğurlamaq" istəmişlər. Barqebi kəndində 97 ev yandırılmışdır. Qudava kəndində Rezo Xaburdzaniyanı və onun oğlunu öz evində öldürmüşlər. Otobai kəndində (zərərçəkənin xahişi ilə ad-soyadını göstərmirik) 19 yaşlı gənc həbs edilmiş, öz bağındakı armud ağacından ayağından (başıaşağı) asılmış, onu yellədərək mərc gəlmişlər - kimin gülləsi boşa çıxmaz? Yaralı gənc böyük çətinliklə xilas edilmişdir. Otobai kəndində ata və oğul Siqualarını həbsə almış, onların əl-ayağını bağlamış və bıçaqla boğazlarını kəsmişlər. Tsebelda kəndində pedaqoq Akaflı İrodi Papianı öldürmüş, boğazını kəsib itə atmışlar...

...Qarabağda müharibə başlayandan az sonra mən Yerevanda olmuşam. Orada Qarabağ qaçqınları ilə görüşüb, söhbət etmişəm. Onlar açıqca etiraf edirdilər:

Biz Qarabağda çox yaxşı yaşayırdıq, ancaq neçə ildir Yerevandan bizə rahatlıq vermirdilər, təbliğat aparır, bizi öyrədirdilər ki, Qarabağı Azərbaycandan qoparmağı tələb etməliyik ki, onu Ermənistanla birləşdirsinlər"...

*(Ardı var)*